14 noyabr 2019-cu il, cümə axşamı XALQ QƏZETİ

# Hindistan səfirliyində Quru Nanak Devin anadan olmasının 550 illiyi qeyd olunub






**Hindistanın Azərbaycandakı səfirliyində noyabrın 12-də Quru Nanak Devin anadan olmasının 550 illiyi qeyd edilib. Tədbir sevgi, bərabərlik, xeyirxahlıq və ləyaqətə əsaslanan siyasi, sosial və mənəvi etiqadları ilə tanınan Siqh icmasının ilk Qurusu, mənəvi lideri Quru Nanak Devin anadan olmasının 550 illiyinin qeyd olunması münasibətilə bir il davam edən silsilə mərasimlərin tərkib hissəsi idi.**



Quru Nanak, uzaq məsafələrə səyahət edərək əbədi həqiqətdən ibarət olan və öz yaratdıqlarında yaşayan "tək Allah" ismarıcını yaymışdır. Onun əsas fikirlərini Siqh əlifbası Gurmuxi ilə yazılmış, geniş ayələr toplusu olan Siqhlərin müqəddəs kitabı Quru Qrant Sahibdə tapmaq olar.

Tədbirdə çıxış edən Hindistan səfiri Bavitlunq Vanlalvavna Pakistanda yerləşən Darbar Sahib Kartarpur məbədinə Hindistandan zəvvarların gedişini asanlaşdırmaq üçün Kartarpur Sahib dəhlizinin yaradılması, Ağıllı Şəhər prinsipləri əsasında Sultanpur Lodhinin irs şəhər kimi tərəqqisi, xatirə sikkə və poçt markalarının tədavülə buraxılması, Hindistan Dəmir Yolları tərəfindən zəvvarlar və turistlər üçün mənəvi lider Şri Quru Nanak Devlə əlaqəli müxtəlif müqəddəs yerlərə qatarların hərəkətinin təşkil edilməsi kimi Hindistan hökumətinin irəli sürdüyü təşəbbüsləri diqqətə çatdırıb. Milli Məclisin deputatı Naqif Həmzəyev tədbirdə çıxış edərək hər iki ölkədə dini tolerantlılıq və multikulturalizm dəyərlərinə böyük önəm verildiyini bildirib.

Tədbirdə digər çıxış edənlər Quru Nanakın həyatının, onun sevgi, bərabərlik və xeyirxahlıq haqqında fikirlərinin bugünkü dünya üçün aktuallığından bəhs ediblər.

Qeyd edək ki, noyabrın 9-da Hindistanın Baş Naziri Narendra Modi Qurdsapur, Dera Baba Nanakda Kartarpur dəhlizinin açılışını edib. Hindistanın Pəncab əyalətində yerləşən Dera Baba Nanak Sahib Siqh ziyarətgahlarını Pakistanın Pəncab əyalətində yerləşən Qurdvara Darbar Sahiblə birləşdirən dəhliz, sitayişkarlara Hindistan--Pakistan sərhədindən 4,7 km uzaqlıqda yerləşən Kartarpurdakı Qurdvaranı vizasız ziyarət etməyə imkan verəcək.

*Elnur ƏLİYEV*